


# GƏNCƏ
## 2016-cı il Avropa Gənclər Paytaxtı









# Avropalılar Gəncəni daha yaxından tanıyacaqlar

*Bu fikirlər Gəncədə "Avropa gənclər paytaxtı" layihəsinin təqdimat mərasimində səsləndirilib*

Baharın ılıq nəfəsi Gəncənin küçə və meydanlarına sanki bir hərarət gətirib. Hər tərəf al-əlvan qumaşa bürünüb. Əllərində üçrəngli Azərbaycan bayrağı tutmuş gənclərin üzündən sevinc oxunur. Hamı qədim Nizami yurdunun bu təntənəsini ölkədə qazanılan uğurların rəmzi kimi qəbul edir, onun nailiyyətlərini dövlət başçısının daxili və xarici siyasətinin məntiqi nəticəsi kimi dəyərləndirir.

Bəli, Gəncə 2016-cı il Avropa gənclər paytaxtı seçilməklə mötəbər bir "ailə"nin üzvünə çevrilmişdir ki, bu müddət ərzində də gənclərin ictimai-siyasi, sosial və mədəni həyatda fəal iştirakına, onların yeni ideya və layihələrinin həyata keçirilməsinə imkan açılmışdır. Layihə həm də gənclərin inkişafı, onların vətənpərvərlik ruhunda formalaşmasında həyata keçirilən dövlət gənclər siyasətinin uğurlu nəticələrinin göstəricisi idi. Layihə ilə bağlı şəhərdə xüsusi hazırlıq görülür. İstirahət guşələri yaradılır, sosial-mədəni obyektlər istifadəyə verilir. Müxtəlif ölkələrdən gənclərin iştirak edəcəyi tədbirlərdə tariximizi, mənəvi dəyərlərimizi əks etdirən, milli mətbəx və geyimlərimizi, xalq yaradıcılığına, el sənətkarlığına dair qədim Gəncə ilə bağlı sərgilər nümayiş etdiriləcək. Bu tədbirlərdə qonaqların şəhərdəki tarixi abidələrlə də yaxından tanışlığı nəzərdə tutulmuşdur. Bununla da avropalılar bir il müddətində Gəncənin timsalında Azərbaycanın tarix və mədəniyyətini, multikultural ənənələrini, tolerantlıq mühitini və müasir inkişafını daha yaxından tanıyacaqlar.

Qeyd edək ki, "Avropa gənclər paytaxtı" "Avropa Gənclər Forumu"nun (AGF) həyata keçirdiyi beynəlxalq layihədir. Bu forum Avropa ölkələrinin Milli Gənclər Şuralarının və beynəlxalq qeyri-hökumət gənclər təşkilatlarının beynəlxalq platformasıdır. "Avropa Gənclər Forumu" ilk dəfə "Avropa gənclər paytaxtı" layihəsini 2009-cu ildə həyata keçirib. Avropanın ilk seçilən gənclər paytaxtı Niderlandın Rotterdam, daha sonra İtaliyanın Turin, Belçikanın Antverp, Portuqaliyanın Braqa, Sloveniyanın Maribor, Rumıniyanın Saloniki və Kluj Napoca şəhərləri olub. Nəhayət, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə Avropa gənclər paytaxtları şəbəkəsinə qoşuldu. Bununla da Nizami yurdunun gəncləri bir il ərzində gənclər sahəsində həyata keçirdikləri proqram və layihələr haqqında məlumatı Avropa ölkələrində nümayiş etdirmək imkanı qazandılar. Gəncəli gənclər Rumıniyanın Saloniki və Kluj Napoca şəhərində keçirilən mərasimdə "Avropa gənclər paytaxtı"nın rəmzi açarını qəbul edərək Azərbaycana - Gəncəyə gətirdilər. Bütün şəhəri dolaşan gənclər mərkəzi meydanda müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular. Həmin gün boyunlarından "Gəncə-2016 Avropa gənclər paytaxtı" yazılmış şərflər asan gənclər bu sevincli anları onlara yaşadan Prezident İlham Əliyevə minnətdarlıq edir, bu qələbəni ölkəmizdə aparılan gənclər siyasətinin təntənəsi kimi dəyərləndirirdilər.

Cənubi Qafqazda ilk dəfə olaraq bu uğura imza atan Gəncə mayın 4-də də özünün əlamətdar günlərini yaşadı. "Gəncə - 2016-cı il Avropa gənclər paytaxtı" layihəsinin rəsmi təqdimatında iştirak etmək üçün 30-a yaxın dövlətdən 50 nəfərədək avropalı gənc qatılmışdı. Mərasim möhtəşəm Heydər Əliyev Mərkəzindən başladı. İştirakçılar əvvəlcə mərkəzin qarşısında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular. Sonra mərkəzin iclas salonunda "Gəncə - 2016-cı il Avropa gənclər paytaxtı" layihəsinin rəsmi təqdimat mərasimi keçirildi. Mərasimi Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev açaraq qədim Nizami yurdunun bu mötəbər quruma üzv seçilməsini tarixi hadisə adlandırdı. Diqqətə çatdırdı ki, gəncəli gənclərin bu qələbəsi Azərbaycanda gənclər siyasəti sahəsində həyata keçirilən tədbirlərin nəticəsidir.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Prezident İlham Əliyevin "Avropa gənclər paytaxtı - 2016" layihəsinin təqdimat mərasimi iştirakçılarına təbrikini oxudu.



Əli Həsənov daha sonra dedi ki, Gəncənin Avropa gənclər paytaxtı seçilməsi, sözün həqiqi mənasında, Azərbaycan üçün, Azərbaycan gəncləri üçün qürur doğuran haldır. Sözün həqiqi mənasında, bu böyük bir sevindirici haldır və bununla biz qürur hissi keçiririk. Məlum məsələdir ki, bu nailiyyət asanlıqla əldə edilməyib. Bu qələbə bütün dünyaya nümunə ola biləcək Azərbaycanda gənclər siyasətinin əsl təntənəsidir. Cəsarətlə deyə bilərik ki, bu gün Azərbaycanda bütün dünyaya örnək ola biləcək gənclər siyasəti aparılır. Azərbaycan gəncliyi dünyanın istənilən qabaqcıl gəncləri ilə rəqabət aparmaq qabiliyyətinə malikdir. Hazırda 2025-ci ilə qədər Azərbaycan gənclər strategiyası müəyyənləşdirilmişdir ki, bunun da nəticəsində mədəni, mənəvi və fiziki proqramlar həyata keçirilir. Bu proqramların həyata keçirilməsində Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, bir çox qeyri-hökumət təşkilatları Avropa strukturları ilə konstruktiv əməkdaşlıq yarada biliblər. Bunun nəticəsidir ki, Avropada və dünyada elə bir regional tədbir yoxdur ki, orada Azərbaycan gəncləri təmsil olunmasın. Məlum olduğu kimi, Azərbaycan gəncliyinin çoxminli ordusunun bir hissəsi Gəncədə yaşayır. Onlar paytaxtdan kənarda yaşasalar da, özlərini ən fəal gənclər kimi göstərə biliblər. Məhz bunun nəticəsidir ki, 2016-cı ilin Avropa gənclər paytaxtı statusunu qazanıblar. Bu da onu deməyə əsas verir ki, ölkəmizdə gənclər siyasəti regionlarda da uğurla həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov daha sonra demişdir ki, Azərbaycanda gənclər siyasəti ölkəmizin prioritet məsələlərindəndir. Ölkə rəhbəri İlham Əliyevin bununla bağlı imzaladığı dövlət proqramlarının əhəmiyyətini vurğulayan Əli Həsənov bu siyasətin bundan sonra da davam etdirilməsi üçün qarşıda duran vəzifələrdən danışmış və əminlik ifadə etmişdir ki, gənclərimiz bundan sonra da beynəlxalq tədbirlərdə iştirak etməklə Azərbaycan həqiqətlərinin, onun multikultural dəyərlərinin təbliğində fəallıq göstərəcəklər.

Sonra gənclər və idman naziri Azad Rəhimov, Avropa Gənclər Forumu idarə heyətinin üzvü Lora Todorova, Avropa Şurası Gənclər üzrə Mərkəzi Şuranın sədri Marko Grdosic, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsaqzai, Türkiyə Respublikasının Əskişəhər valisi Yüksel Şimşek, Avropa Gənclər Paytaxtı şəbəkəsinin icraçı direktoru Andras Farkas və başqaları çıxış edərək Azərbaycana gəlmələrindən məmnun olduqlarını, eləcə də 2016-cı il Avropa gənclər paytaxtı seçilmiş Gəncədə bu istiqamətdə görülən işlərdən məmnun qaldıqlarını bildirmişlər.

Rəsmi təqdimat mərasimindən sonra Heydər Əliyev park-kompleksində inşa edilmiş "Gənclər evi"nin açılışı olmuşdur. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, gənclər və idman naziri Azad Rəhimov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev rəmzi qırmızı lenti kəsdikdən sonra burada gənclərin istirahəti, intellektual oyunlar keçirmələri üçün yaradılan şəraitlə tanış olmuşlar. Park-kompleksə xüsusi yaraşıq verən "Gənclər evi" qonaqlarda xoş təəssürat yaratmışdır.

Günortadan sonra tədbir rəsmi şəxslərin, Avropa Gənclər Forumu nümayəndələrinin, xarici ölkə gənclərinin iştirakı ilə Cavad xan küçəsində davam etdirilmişdir. Burada şəhərin musiqi və rəqs kollektivləri maraqlı proqramla çıxışlar etmişlər. "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblı üzvlərinin Azərbaycan bayrağı ilə rəqs etmələri qonaqlarda xoş anlar yaşatmışdır. Məktəblilər və balacaların ifasında səslənən şeirlər, musiqi və rəqslər mərasimi daha da canlandırmışdır.

İştirakçılar Gəncəçay bulvar kompleksində "Qədim Gəncə" adlı mənəvi dəyərləri təcəssüm etdirən səhnələrə baxmış, milli mətbəximizin və geyimlərimizin, xalq yaradıcılığının, el sənətkarlığının ən gözəl nümunələrinə tamaşa etmişlər. Şəhərin peşəkar musiqiçilərinin qədim musiqi alətlərində ifası tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır. Xalq tətbiqi sənət nümunələri və əl işlərindən ibarət əsərlərin sərgisi də iştirakçılarda maraq oyatmışdır.

Sonra qonaqlar "Gəncə Avropa gənclər paytaxtı - 2016" İctimai Birliyinin ofisinin açılışında iştirak etmişlər. Birliyin sədri Elmir Vəliyev qonaqları ofislə tanış etmiş, il ərzində "Gəncə - 2016-cı il Avropa gənclər paytaxtı" layihəsi çərçivəsində həyata keçiriləcək tədbirlərdən danışmışdır. Diqqətə çatdırmışdır ki, gəncənin bu mötəbər qurumda layiqincə təmsil olunması üçün çoxlu sayda tədbirlər müəyyənləşdirilmişdir. Əsas məqsəd şəhər gənclərini bir araya gətirmək və onların qüvvəsini Azərbaycanın, eləcə də Nizami yurdunun Avropada təbliğatına yönəltməkdir.

Milli-mənəvi dəyərlərimizlə yaxından tanış olan Avropalı qonaqlar təqdimat mərasimi çərçivəsində "Gəncə Avropa gənclər paytaxtı - 2016" parkına gəlmişlər. Burada gənclər keçirilən əyləncəli proqramda iştirak etmişlər. Axşam Gəncənin mərkəzi meydanında böyük bayram konserti olmuşdur.

Yunanıstanlı qonaq Dimitrios G.Tsoungar: "Bu mənim Gəncəyə ikinci səfərimdir. Birinci dəfə qeyri-rəsmi gəlmişdim. Sizin ecazkar şəfa ocağınız olan Naftalan şəhərində müalicə olunduğum zaman eşitdim ki, Gəncə adında gözəl bir şəhər var. Elə ona görə də məndə Gəncə ilə tanış olmaq həvəsi yarandı. Burada gördüklərim, sözün həqiqi mənasında, məni heyran etdi. Yunanıstandakı kimi sizin ölkədə də qədim tarixə malik çoxlu sayda abidələriniz var. Ümidvaram ki, Avropa gənclər paytaxtı seçilən Gəncəni, ümumiyyətlə Azərbaycanı daha yaxından tanıyacağıq".

Sloveniyalı qonaq Zeljko Milovanoviç: "Təmsil etdiyim Sloveniyanın Maribor şəhəri 2013-cü ildə Avropanın gənclər paytaxtı olub. İlk dəfə Gəncə haqqında o zaman eşitdim. Bu gün keçirilən möhtəşəm təqdimat mərasimində iştirak etdiyim üçün özümü xoşbəxt hiss edirəm. Azərbaycan xalqının nə qədər qonaqpərvər olduğunu gözlərimlə gördüm. Sizə uğurlar arzulayıram".

Rumıniyalı qonaq Fernea Codruta: "Coğrafi cəhətdən Azərbaycanın yerləşdiyi məkan haqqında az da olsa, məlumatım var idi. Ancaq xalqınız haqqında, onun mədəniyyəti və tarixi ilə bağlı məlumatlı deyildim. Bura gələndə ilk dəqiqələrdən nə qədər mehriban və qonaqpərvər olduğunuzu gördüm. Sizlərlə ünsiyyət qurmaq çox asandır. Müraciət etdiyim hər kəs ölkəsi, yaşadığı şəhər haqqında ətraflı məlumat verməyə hazırdır. Bu, çox gözəl keyfiyyətdir".

Portuqaliyalı qonaq Maria Katarina: "Gəncəyə gəlişimə şadam. Çünki Azərbaycanla bağlı biliklərim artdı. İki gündür ki, buradayam. Şəhərlə yaxından tanış oldum. Çox zəngin eksponatları olan muzeyləriniz var. Xüsusilə min il əvvəl yaşamış azərbaycanlı şairə Məhsəti Gəncəvi haqqında ətraflı məlumat aldım. Elə Nizami Gəncəvinin məqbərəsi də məndə böyük təəssürat yaratdı. Xoşbəxtsiniz ki, belə dahi sənətkarlarınız var".

Avropa Gənclər Forumunun təmsilçisi Lora Todorova: "Azərbaycana ilk dəfədir ki, gəlirəm. Şəhəriniz çox gözəldir.Tarixi qədim olsa da, müasir tikililəri ilə br ahəng yaradıb. Mən dünyanın bir çox ölkələrində olmuşam. Sizin qədər mehriban və qayğıkeş insanlar görməmişəm. Gəncə ilə tanışlıq zamanı kimə müraciət etdimsə, böyük mehribançılıq gördüm. Mən siyasi icmalçıyam. Söz yox ki, burada gördüklərim haqqında çıxışlarımda ətraflı bəhs edəcəyəm".

İtaliya Gənclərin Anlaşma və Mübadilə Təşkilatının təmsilçisi Marya Borisova: "2019-cu il üçün İtaliyanın Peruca şəhəri Avropa Gənclər Paytaxtı uğrunda final yarışmasına qoşulub.Yəqin ki, belə bir xoşbəxtlik bizə də nəsib olacaq. Əgər mənim təmsil etdiyim şəhər Avropa gənclər paytaxtı seçilsə, sizin təcrübəniz dən bəhrələnəcəyik. Xüsusilə buradakı könüllülərin fəaliyyəti məni çox sevindirdi".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***